**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№359/2** **28 sentyabr 2023-cü il**

**Auditor təşkilatları və sərbəst auditorların 2023-cü ilin I yarımili üzrə hesabatların toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 1.4-cü "Auditor təşkilatlarının və sərbəst auditorların hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə Palatanın Auditin təşkili və hesabatlılıq idarəsi (V.Cavadov) tərəfindən hazırlanmış 2023-cü ilin I yarımili üzrə hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor təşkilatları və sərbəst auditorların 2023-cü ilin I yarımili üzrə hesabatların toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması barədə" hesabat nəzərə alınsın (əlavə olunur).

2. 2022-ci ilin I yarımili ilə müqayisədə 2023-cü ilin I yarımilində yerinə yetirilmiş müqavilələrin sayının 2666-dan 3070-ə qədər, yəni 404 ədəd və ya 15%, məbləğinin 29.624.973,00 manatdan 40.817.631,00 manata qədər, yəni 11.192.658,00 manat və ya 38%, orta məbləğin isə 11.112,00 manatdan 13.295,00 manata qədər, yəni 2183,00 manat və ya 20% artması müsbət hal kimi dəyərləndirilsin.

3. 2023-cü ilin I yarımilində auditor xidmətinin inkişafı sahəsində göstərdikləri səylərə görə və Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"nə aşağıda adları qeyd olunan auditor təşkilatlarının rəhbərlərinin və sərbəst auditorların tam əməl etmələri müsbət hal kimi qeyd olunsun:

Auditor təşkilatları:
- "Abacus Audit and Consulting" MMC (direktor Zeynalov Rüfət);
- "ACCEPT-AUDIT" MMC (direktor Tarverdiyev Əli);
- "Alfa-Audit" QSC (direktor Musayev Vəli);
- "ANR Audit" MMC (direktor Abbaslı Namiq);
- "ATR AUDİT" MMC (direktor Məmmədova Sevinc);
- "Bakinar Audit" MMC (direktor Piriyev Abdulla);
- "Bizcon Audit" MMC (direktor Bayramov Anar);
- "Biznes Audit" MMC (direktor Əliyev Məhərrəm);
- "Business Consulting Company" MMC (direktor Məmmədov Rəhman);
- "Business Finance And Audit" MMC (direktor Abasov Qürur);
- "Caspian Business Consultants" MMC (direktor Həsənov Rauf);
- "CƏFƏROĞLU AUDİT" MMC (direktor Rzalı Şəhla);
- "COMPASS Audit-Consulting" MMC (direktor İsgəndərov Səməd);
- "Ekspert Finans Konsaltinq" MMC (direktor Misiyafova Zöhrə);
- "FAM GROUP AUDİT" MMC (direktor Hüseynov Mirkazim);
- "FİNSTAB AUDİT" MMC (direktor Yusifzadə Yusif);
- "F.N. Audit Servis" MMC (direktor Əliyev Fuad);
- "Garant Audit Azərbaycan" MMC (direktor Cəfərov Elçin);
- "Global and Legal Audit" MMC (direktor Qarayev Rüfət);
- "Global Assurance" MMC (direktor Süleymanova Ədilə);
- "HLB Azərbaycan" MMC (direktor Əliyev Müşviq);
- "HL Company" MMC (direktor Həsəov Hüsaməddin);
- "İAS" MMC (direktor Əhmədov Aqşin);
- "İATC" MMC (direktor Şükürov Rüfət);
- "İnter Audit" auditor təşkilatı (direktor Bağırov Əlimuxtar);
- "L.B.Audit xidməti" MMC (direktor Bayramova Lamiyə);

- “LŞ Audit” MMC (direktor Hüseynov Fərhəddin);
- “NEXT AUDİT – KONSALTİNQ” MMC (direktor Həsənov Bəhlul);
- “Nexia EA” QSC (direktor Haqverdiyev Həsən);
- “OSHAR” MMC (direktor Manafov Rahim);
- "Smart Audit" QSC (icraçı direktor Məmmədov Emil);
- “SR AUDİT SOLUTİONS” MMC (direktor Vəlizadə Səftər);
- “TİMP” MMC (direktor Məhərrəmov Orxan);
- “TNM Audit” MMC (direktor Talıbov Nəcəf);
- “UHY Audit” MMC (direktor Əliyev Haşım);
- “VN FİNANS GROUP” MMC (direktor Hüseynzadə Valeh);
- “VXA – Audit” MMC (direktor Qurbanov Elçin).

Sərbəst auditorlar:
- Abbasov Çingiz;
- Allahverdiyev Məmməd;
- Axundov Nazim;
- Cəfərov Altay;
- Əliyev Elvin;
- Əhmədov Hafiz
- Fətiyev Üzeyir;
- İbrahimov Elnur;
- Quliyev Rüfət;
- Şərifov Ərşad;
- Süleyman İlham;
- Tağıyev Vasif.

4. 2023-cü ilin I yarımili üzrə auditor xidmətlərinin bağlanılmasına dair müqavilələrini “Auditorun şəxsi kabineti” sisteminə tələb edilən müddətlərdə daxil etməyən auditor təşkilatlarının rəhbərlərinə – “BDO Azərbaycan” MMC (direktor Salayev Yunis), “Caspian Business Consultants” MMC (direktor Həsənov Rauf) və sərbəst auditor Rzayev Akifə xəbərdarlıq elan edilsin.

5. Auditorlar Palatası sədrinin 2023-cü il 07 mart tarixli 1/9 nömrəli sərəncamı ilə yaradılan komissiyaya tapşırılsın ki, Palata Şurasının “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri” barədə 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarına əməl etməyən auditor təşkilatları və sərbəst auditorlar barəsində intizam və tənbeh tədbirlərinin görülməsi istiqamətində fəaliyyətlərini davam etdirsinlər.

6. 2023-cü ilin I yarımilində ölkənin auditor xidməti bazarında baş vermiş inkişaf meylləri müsbət hal kimi dəyərləndirilsin və bu sahədə daha yüksək göstəricilərə nail olmaq məqsədilə təhlil zamanı aşkar edilmiş neqativ halların aradan qaldırılması üçün əməli tədbirlər görülməsinin davam etdirilməsi məqsədilə auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, auditor xidmətlərinin göstərilməsi zamanı Beynəlxalq Audit Standartlarının tələblərinə uyğun olaraq sifarişçilərin fəaliyyətində nöqsan və çatışmazlıqların müəyyən edilərək qiymətləndirilməsinə və bu halların aradan qaldırılmasına diqqətin artırılmasının vacibliyini nəzərə alsınlar.

7. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, 2023-cü ilin I yarımili üzrə məcburi auditdən keçmə səviyyəsi aşağı olan bələdiyyələr və siyasi partiyalar üzrə aidiyyəti qurumlara müvafiq məlumatın göndərilməsi təmin edilsin.

8. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində və “Auditorun şəxsi kabineti sistemi”ndə yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**